Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Sevilən romanlar müəllifi -Mövlud Süleymanlı

**Mövlud Süleymanlının 80 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2023**

**Tərtibçi:** **Aynurə Əliyeva**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
***Əməkdar Mədəniyyət işçisi***

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Sevilən romanlar müəllifi -** Mövlud Süleymanlının 80 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. Aynurə Əliyeva; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 22s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

## Tərtibçidən

Yazıçılıq, elə həyatın özü kimi, nəyisə dərk etmək məqsədilə çıxdığın yoldur. Yazıçı və ya yazar-ideyaları çatdırmaq üçün fərqli üslublar və texnikalarla yazılı sözlərdən istifadə edən insan. Yazıçılar ədəbi sənətin fərqli formlarını və romanlar, hekayələr, kitablar, poeziyalar, səfərnamələr, pyeslər, ssenarilər, teleskriptlər, mahnılar və esselər kimi kreativ yazı işləri, habelə ictimaiyyət üçün maraqlı ola biləcək hesabatlar və məqalələr ərsəyə gətirirlər. İdeyaları yaxşı bir şəkildə çatdırmaq məqsədilə dildən məharətlə istifadə edə bilən yazıçılar çox vaxt bir cəmiyyətin mədəniyyətinə önəmli töhfələr verir. Hər bir yazar öz üslubu ilə, özü üçün yaratdığı dillə tanınır.

Azərbaycan ədəbiyyatında, ümumiyyətlə, xalqımızın mənəvi aləmində böyük yeri, mövqeyi və məqamı olan unikal düşüncə sahibi, qələm-söz ustası, fonemenal yaddaş daşıyıcısı, görkəmli xalq yazıçısı Mövlud Süleymanlının dili, üslubu da oxucular tərəfindən qəbul edilən, oxunan və seviləndir. O, çağdaş Azərbaycan nəsrinin ən görkəmli nümayəndələrindəndir. Təkrarsız yaradıcılıq aləmi, özümlü fərdi üslubu, dili ilə o, yazıçılar içərisində məxsusi yer tutur. Mövlud Süleymanlının bir nasir kimi şöhrəti ilk hekayələrinin oxuculara təqdim olunduğu 1970-ci illərdən parlamağa başlamış, hər yeni əsəri ilə o, daha da artaraq ümumxalq sevgisi qazanmışdır.

Ədəbiyyatımızda özünəməxsus yeri olan Azərbaycan ədəbiyyatının öndər yazıçılarından biri olan Mövlud Süleymanlının bu il 80 illik yubileyi olur. Bu münasibətlə Respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda, kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi

nəzərdə tutulmuşdur. Biz də öz növbəmizdə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə “Özünəməxsus yazı üslubu olan ədib” adlanır və ədibin yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır. II hissədə isə yubiley münasibətilə ilə kitabxanalarda keçiriləcək tədbirlər öz əksini tapır. Bu tədbirlər arasında sərgi mühüm yer tutur. Sərgidə yazıçının kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr və onun fotoları nümayiş olunur. Sərgi başıqları aşağıdakılardan ibarətdir: “Özünəməxsus yazı üslubu olan ədib”, “Janr rəngarəngliyi ilə seçilən - Mövlud Süleymanlı”, “Azərbaycan ədəbiyyatının öndər yazıçılarından biri-Mövlud Süleymanlı”, “Sevilən romanlar ustadı-Mövlud Süleymanlı” və s.

## Həyatı

Mövlud Süleymanlı 1943-cü il mart ayının 18-də Ermənistan SSR-nin Kalinino rayonunun Qızıl Şəfəq kəndində (keçmiş adı “Cücəkənd”) doğulmuşdur. Atası Süleyman Məhəmməd oğlu 1942-ci ilin axırlarında İkinci Dünya müharibəsinə getmiş, 1945-ci ilin aprel ayının 23-də Berlin uğrunda döyüşlərdə həlak olmuşdur. Anası Bağdagül Mahmud qızı bədahətən şeirlər demişdir. Mövlud Süleymanlı Qızıl Şəfəq kənd 7 illik məktəbindən sonra qonşu İlməzli kənd orta məktəbinin X sinfini (1960) bitirmişdir. 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olub, 1967-ci ildə oranı bitirmişdir.

**Yaradıcılığı**

Ədəbiyyata ötən əsrin 70-ci illərində gəlmiş Mövlud Süleymanlı yaradıcılığa lirik şeirlərlə başlamışdır. Onun "Əllərim" adlı ilk şeiri 1964-cü ildə "Azərbaycan gəncləri" qəzetində çap olunub. Ədibin "Bir ünvan" adlı şeir kitabı da çap olunub. M.Süleymanlının yaradıcılığını səciyyələndirən başlıca amillər ondan ibarətdir ki, əsərlərində məxsus olduğu xalqın tarixi, etnoqrafiyası, mənəvi-əxlaqi dəyərləri, vətənpərvərlik hisləri ön plandadır.

M.Süleymanlının ilk nəsr kitabı yetmişinci illərin sonları çapdan çıxıb. 1970-ci illərin ikinci yarısında ədibin bir-birinin ardınca hekayə və povestləri dərc edildi.

"Qar", "Yanğın", "Şanapipik", "Şeytan", "Dəyirman" hekayələrindən ibarət 1979-cu ildə "Ayın aydınlığında" kitabı işıq üzü gördü. Bu hekayələr M.Süleymanlını xalqa cəmiyyət problemlərini zamanında görüb əks etdirən gözəl bir nasir kimi tanıtdı. "Şanapipik", "Duzsuzluq", "Ot" yazıçının müharibə mövzusuna həsr etdiyi hekayələri sırasındadır.

Ədib 1980-ci illərdən başlayaraq daha çox roman janrına müraciət etdi. "Köç", "Ceviz qurdu" "Səs" romanları çağdaş Azərbaycan romançılığının inkşafında bir pillədir. "Köç"(1980) xalqın milli keçmişindən, sovet hakimiyyətinin gəlişinə qədərki taleyindən söhbət açır. Romanda təbliğ olunan başlıca ideya Azərbaycan xalqının birliyi ideyasıdır. Mövlud Süleymanlının bir sıra hekayələrində və "Köç" romanında Azərbaycan nəsri üçün yeni olan mifik təfəkkür tərzi, türk etnoqrafiyası və folklorunun ən qədim çalarları

diqqəti cəlb edir. Xalq şairi Bəxtiyar Vahabzadə "M.Süleymanlıya açıq məktub"unda yazırdı:

"Köç" xalqımızın yüz illərdən bəri keçib gəldiyi yolların tarixi, adət və ənənələrini qoruyub saxladığı köçəri ruhunun bədii etnoqrafiyasıdır".

"Ceviz qurdu"(1982) — 1930-cu illərin represiyalarından 80-ci illərə qədərki fasiləli tarixin xalqın həyatında buraxdığı izlərdən, milli insana vurduğu sağalmaz yaralardan bəhs edir. Müəllif roman boyu ceviz qurdunun cevizə daraşıb, onu tamam məhv etməsini təkcə ziyanvericilərə qarşı mübarizəni təsvir üçün qabartmır. Burada həmçinin geniş planda cəmiyyət ziyanvericilərinin insanların mənəvi dünyasına daraşmasını, onu getdikcə məhv etməsini göstərmək üçündür.

"Səs" sovet cəmiyyətinin son durumunu əks etdirən sosial romandır. Ümumilikdə yazıçı "Səs" və "Ceviz qurdu" romanlarında cəmiyyətin düçar olduğu mənəvi bəlaların necə fəsadlar törətdiyini əks etdirir. Hadisələr həm ailə-məişət çərçivəsində, həm ictimai münasibətlərdə, həm də ayrı-ayrı fərdlərin düşüncələrində cərəyan edir. Hər iki romanda rəmzi-metaforik obrazlar diqqəti cəlb edir.

"Səs" romanının ikinci hissəsi kimi qələmə alınan "Günah duası" psixoloji roman kimi düşünülmüşdür. Romanda yazıçı sovet cəmiyyətinin çürüdüyünü, insanların mənəviyyatını pozduğunu göstərir.

"Dəyirman" povesti üzrə səhnələşdirilmiş "Dəyirman" pyesi Hüseyn Ərəblinski adına Sumqayıt Dram Teatrında (1988), "Satqın" əsəri "Yuğ" teatrında (2000) tamaşaya qoyulmuşdur. "Şeytan" (1978), "Dəyirman" (1979) əsərlərinə görə uzun müddət tənqidə məruz qalan və təhlükəsizlik

orqanları tərəfindən çək-çevir edilən M. Süleymanlı bir neçə dəfə Dövlət tərəfindən mükafatlandırılmışdır. "Ömürdən qıraqda" povesti yazıçının son illərdə (2005) qələmə aldığı əsərlərdəndir.
Romanlar: "Köç","Ceviz qurdu","Günah duası","Səs"
Povestlər:"Şanapipik","Duzsuzluq", "Yel Əhmədin bəyliyi", "Şeytan", "Dəyirman","Ot", "Ömürdən qıraqda", "Teymurilər", "Mehman"
Hekayələr: "Yamacda bir kənd", "Yüz günümdən biri", "Armud ağacının nağılı","Bərəkət","Füşkürək","Yallı gecəsi", "Dünyanın işığı", "Sapand","Qar", "Yanğın", "Qaraca kişinin yaylaqları", "Ayın aydınlığında", "Çoban İbrahim və velosiped", "Sığırçı Gülünün ala iti", "İt dərsi", "Ağacan", "Quru kəllə","Son dayanacaq"
Kitabı: “And olsun, əsrə…”

**Əmək fəaliyyəti**

Mövlud Süleymanlı 1968-ci ildə Azərbaycan Dövlət Radiosuna işə qəbul edilmiş, əvvəlcə "Gənclik", sonra "Ədəbiyyat və İncəsənət" baş redaksiyasında redaktor kimi çalışmışdır. O, 1992-ci ilin sonlarında Azərbaycan Dövlət Tele-Radio Şirkətinin Radio üzrə sədr müavini vəzifəsinə gətirilmiş, 17 il bu vəzifədə çalışmışdır (1992–2009). Bununla yanaşı, ədib kinostudiya, 1976-1980-ci illərdə Yazıçılar İttifaqının orqanı olan "Ulduz" jurnalında nəsr şöbəsinin müdiri, 1980-1988-ci illərdə "Azərbaycan" jurnalında nəsr şöbəsində rəhbər kimi fəaliyyət göstərmişdir. Radionun qızıl fonduna daxil olmuş, həftəlik yayımlanan "Bulaq" verilişinin, 1969-ci ilin oktyabrında ilk müəllif nömrəsini yazmışdır. Verilişin uzun illər Azərbaycan folklorunun, etnoqrafiyasının, dilinin, məişətinin təbliğində

əhəmiyyətli rol oynadığı əsas götürülərək 1974-cü ildə Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm" mükafatına layiq görülmüşdür. 1972-ci ildə Tele-Radio Verilişləri komitəsindən Moskvaya ixtisasartırma kurslarına göndərilmişdir. 1974-cü ildə Cəfər Cabbarlı adına Azərbaycanfilm kinostudiyasına ssenarist kimi qəbul edilmişdir.

Ssenarisi əsasında "Bəyin oğurlanması" və Moskva Dövlət Kinematoqrafiya Komitəsinin sifarişilə "Çətirimiz buludlardır" bədii televizya filmləri çəkilmişdir. 1976-cı ildə Azərbaycan Yazıçılar İttifaqına işə dəvət edilmişdir. 1974-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Prezident təqaüdçüsüdür. M. Süleymanlının 1992-1993-cü illərdə baş redaktorluğu ilə "Oğuz eli" adlı müstəqil qəzet nəşr olunmuşdur.

1992-ci ildə Azərbaycan Dövlət Televiziyasına işə dəvət edilmiş və televiziyanın "Xalq yaradıcılığı" redaksiyasına baş redaktor vəzifəsinə təyin olunmuşdur. Redaksiyada onun rəhbərliyi ilə folklor, etnoqrafiya yönündə yeni "Sizə hardan deyim?", "Təbriz gözəlləməsi", "Şirvan gözəlləməsi", "Yurd yeri" və s. kimi verilişlər hazırlanmışdır. 1992-ci ildə Azərbaycan Dövlət Televiziyasına işə dəvət edilmiş və televiziyanın "Xalq yaradıcılığı" redaksiyasına baş redaktor vəzifəsinə təyin olunmuşdur. Redaksiyada onun rəhbərliyi ilə folklor, etnoqrafiya yönündə yeni "Sizə hardan deyim?", "Təbriz gözəlləməsi", "Şirvan gözəlləməsi", "Yurd yeri" və s. kimi verilişlər hazırlanmışdır.

Azərbaycan Dövlət Radiosunda onun rəhbərliyi ilə "Respublika", "Dan yeri", 'Dünəndən bu günə", "Bizdən sonra", "Sarıtel", "Xeyrə qənşər", "Bulaq başı", "Mövqe",

"Axtarış", "Dövran", "Qürbətdə qalan Vətən", "Parlament saatı", "Gündoğandan gün batana", "Eşidirsizmi?", "Qonaq eldən gələr", "Var səsimlə", "Çiyin çiyinə", "Tanrı duaları" və s. verilişlər efirə çıxmışdır.

**Görkəmli şəxiyyətlərin söylədikləri:**

Mövlud Süleymanlının "Dəyirman" əsəri doğrudan da maraqlı, düşündürücü əsərdir.

**Şamil Salmanov,**
*ədəbiyyatşünas*

Məncə, "Dəyirman" bu günki nəsrimizdə bir ədəbi hadisədir.

**İlyas Əfəndiyev,**
*nasir, dramaturq*

Mövlud Süleymanlı istedadlı nasirdir. Onun folklor poetikasına və xalq yaradıcılığına bələdliyi hekayə və povestlərində də görünür.

**Əziz Mirəhmədov,**
*ədəbiyyatşünas*

Mövludun yaradıcılığı məni tam qane edir. O, düzgün yoldadır.

**İsmayıl Şıxlı,**
*ədəbiyyatşünas, publisist*

Mövlud Süleymanlını əsərlərinə görə alqışlamaq lazımdır. O, istedadlı nasirdir. Əla yazı manerası, təmiz dili, üslubu var.

**Ənvər Məmmədxanlı,**
*yazıçı, kinodramaturq*
















*Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi **"Əsərlərin təhlili"** də keçirilə bilər. Oxucuların istəyini nəzərə alan kitabxanaçı oxucularla birgə Mövlud Süleymanlının müxtəlif adda əsərlərini müzakirə edə bilər. Kitabxanaçı əvvəlcə adı çəkilən bu kitab haqqında məlumat verir.*

***Kitabxanaçı:*** Mövlud Süleymanlı Azərbaycan nəsrinə onun keçən əsrdə ən çiçəkləndiyi bir vaxtda gəldi. Nəsrdən əvvəl

Mövlud müəllim şeiriyyət aləmində addımlayırdı. Eyni zamanda Azərbaycan radiosunda əməkdaşlıq edir, sonralar "Bulaq" adı ilə tanınan və xalqın ürəyinə yol tapan həftəlik veriliş üçün ssenarilər yazırdı. Mövlud sonralar da şeir yaradıcılığını davam etdirdi, "Bulağ"ın mənəvi müəlliflərindən biri oldu. Amma tarix onu ədəbiyyat səhnəsinə *nasir* kimi tanıtdırmaq istəyirdi.

Mövlud Süleymanlının ilk nəsr kitabı çapdan çıxanda yetmişinci illərin sonlarıydı. Bu elə bir dövr idi ki, meydanda İsa Hüseynov, Sabir Əhmədli vardı. Onlar ən gözəl romanlarını, povestlərini yazmışdılar və yenə yazmaqda davam edirdilər. Anar, Elçin, İsi Məlikzadə, Fərman Kərimzadə, Sabir Azəri, Sabir Süleymanov, Çingiz Ələkbərzadə, Əlibala Hacızadə ("altmışıncılar") isə yeni ruhlu, bir sıra stereotipləri uçurub-dağıdan əsərləriylə nəsrdə yeni səhifələr yazırdılar. Doğrudan da, nəsrdə sözün həqiqi mənasında artıq normativləşməyə başlayan üslubla təzə-fərdi üslubların mübarizəsi gedirdi. Ədəbiyyatda fərdi insan talelərinə, psixoloji aləmin təsvirinə maraq ön plana keçirdi. Mövlud Süleymanlı da bu polifonik dəstədə öz yerini tuta bildi. Mövlud Süleymanlı üçün geriyə, yaşanılmış ömür yoluna boylanmaq heç bir günah cizgisi və xəcalət duyğusu ilə yadda qala bilməz, yəni Mövlud Süleymanlı keçmişi üçün utanan insan deyil.

O, xalq yazıçısı və Prezident təqaüdü mükafatçısıdır. Uzun illər Mövlud Süleymanlı Azərbaycan Radio və Televiziya Şirkətində sədrin müavinlərindən biri olub. Mövludun kinostudiya, "Ulduz" və "Azərbaycan" jurnallarında şöbə müdiri kimi təcrübəsi olub.

Hər hansı bir yazıçını ilk növbədə, onun fərdi üslubuyla tanıyarlar və Mövlud Süleymanlı da ədəbiyyata gələndə öz cümləsiylə, həyata, insan münasibətlərinə fərdi yanaşma tərzi ilə qədəm basdı. Onun hər hansı əsərindən lap elə bir neçə cümlə oxusanız, dilinin şirinliyi, özünəməxsus obrazlı ifadə tərzi və hətta bir qədər qəribə təsir bağışlayan təhkiyə forması sizi cəlb edəcək. O zaman (yetmiş-səksəninci illərdə) bəzi tənqidçilər bunun normativ yazı üslubuna, ənənəvi deyim tərzinə (hansı ki, sovet dövründə illər boyu Azərbaycan nəsrinin boynuna biçilmişdi) uyğunlaşmadığını görüb haray qoparırdılar. Nəsrdə sanki bütün zamanlar üçün eyni normativ qrammatika ilə nəfəs alan vahid üslub, yazıçıdan yazıçıya, kitabdan kitaba, əsərdən əsərə addımlayan, fəqət irəliləməyən bu yeganə ifadə tərzi dili öldürürdü. Eynilik sənətin düşmənidir və Mövlud Süleymanlının bir yazıçı kimi uğuru bu eynilikdən qaçması oldu.

Mövlud Süleymanlının fərdi üslubunda dil qışqırmır, haray çəkmir, yaxud publisistik bir əda ilə protokol sevinci ilə nitq eləmir. Onun dilində bəzi nəsr əsərlərinə məxsus bayağı, sentimental örtükdən əsər-əlamət yoxdur. Burada hər şey adiliyin və təbiiliyin mətn daxilində birdən-birə qeyri-adiliyə çevrilmə prosesini əks etdirir. Aşağıdakı cümlələrə diqqət yetirək.

"Dan yeri sökülmüşdü. Havada sazaq vardı, amma dörd tərəf ki, uca-uca, sıra-sıra dağlar idi, sazağın səmti bilinmirdi. Bilmək olmurdu ki, ağ yeldəndimi, qara yeldəndimi...
Otlar-əncəklər, çiçəklər boyu üzünü dikəlib sazağa sarı açılmışdı. O yolacın o otunnan, bu yamacın bu otuna qəribə bir duyğu, qoxu gəlirdi ki, otlar-əncərlər, güllər-çiçəklər də bu qoxunu, bu duyğunu duymuşdu. O yamacın o gülünnən,

bu yamacın bu gülünə yellər sevgi gətirirdi, buna da Şamil kişi "puçur yeli" deyirdi.

Quzuların dırnağıyla, Bəkilin ayağıyla sevgi gəlirdi. Bu yamacın otları bu sevgini udub ayılırdı. Quşlar, böcəklər, arılar güllərə, otlara sevgi daşımaqdaydı".

Əsərlərində xalq ruhunu ifadə edən yazıçılar az deyil. Nağılları, əfsanə və rəvayətləri "müasirləşdirib" poema, povest yazanlarımız da var. Lakin elə yazıçılar var ki, xalq bədii təfəkkürü onların yaradıcılığına ana südündən gəlir. Mövlud Süleymanlının bir sıra hekayələrində və "Köç" romanında Azərbaycan nəsri üçün təzə və görümlü olan mifik təfəkkür tərzi, türk etnoqrafiyası və folklorunun ən qədim çalarları diqqəti cəlb edir.

"Altı yaşlı İmir bir il idi yuxusunda burulğana düşürdü. Göyidimi, suyudumu, quruydumu, haraydısa, bir quyunun ağzıydı. Min cür boya bir-birinə qarışa-qarışa İmir də içində yumrulanıb-yumrulanıb dörd oynayırdı. Əlləri, ayaqları, üzü-gözü əyilənə kimi fırlanırdı. Nəsə deşilirdi, bir-birinə qarışa-qarışa burulan rənglərin qanı axırdı. İmir yavaş-yavaş yerindən dururdu, yatağından qalxırdı, iri-iri açılan göyümsov gözləri ilə yox, bütün canı ilə görə-görə dünyanın üstüylə addımlayırdı" ("Köç" romanından).

Balaca İmirin bu yuxusu əslində, böyük bir kökün, nəslin xatırlanmasıdır. Qarakəllə kökü bu uşağın yuxusuna çökməklə əcdadı, sələfi unutmamağı təlqin edir. Və uşaq bu ağır, dəhşətli yuxuların təzyiqinə davam gətirmir, yuxu görə-görə ayağa durur, yeriyir. "İmir dayanıb səssizcə baxardı, elə bil, durduğu yerdəcə yuxu görürdü. Üç yüz ilin başından çıxan köç, İmirdən də keçib gələcəyə gedirdi".

Xalq şairi Bəxtiyar Vahabzadə “Köç”ü “xalqımızın yüz illərdən bəri keçib gəldiyi yolların tarixi, adət və ənənələrini qoruyub saxladığı köçəri ruhunun bədii etnoqrafiyası” adlandırmışdı.” Bəxtiyar müəllim daha sonra yazırdı ki: “Əzizim Mövlud! “Köç”lə o yurddan bu yurda köçən, yurdlara sığmayan dədə-babamızın geniş ruhunu, təbiətin özü qədər narahat təbiətini, iqlimdən-iqlimə salam aparan nağıllı, əfsanəli ürəyini ürəyimizə köçürdün, qanımızı qaynatdı. Özümüzdən gizli qanımızda yaşayan o ruhu dilə gətirdin, bizi özümüzə qaytarıb təzələdin. Bu əsər “Yol” da ola bilərdi, çünki bu, bir xalqın doğula-doğula, ölə-ölə təkcə torpaq üstündə deyil, həm də tarix boyu keçdiyi enişli-yoxuşdu, davalı-şavalı bir yolun təsviridir.”

Romanda təbliğ olunan başlıca ideya Azərbaycan xalqının birliyi ideyasıdır və M.Süleymanlı bu ideyanı özünəməxsus bir tərzdə təcəssüm etdirmişdir.

Ümumiyyətlə, Mövlud Süleymanlıdan söz açanda, onun yaradıcılığının başlıca istiqaməti haqqında düşünəndə xalq anlamı yada düşür və əslində, bu anlamsız onun nəsrinə qiymət vermək mümkün deyil. Xalq bütün qütbləri və aspektləri ilə Mövludun əsərlərinin mahiyyətini təşkil edir. Təkcə etnoqrafiq tərəfləri ilə deyil, mənəvi, ictimai-siyasi yönləriylə. Konkret olaraq, Azərbaycan xalqı onun əsərlərində mübarizələrlə dolu tarixi bir yol keçir, özünü dərk edir. M.Süleymanlının “Şanapipik”, “Duzsuzluq”, “Ot”, “Noxtalı adam” povestlərində də “Köç” romanında olduğu kimi, kənd məişəti, xalqın etnoqrafik həyat tərzi, çölçülük, əkinçilik, maldarlıq təsərrüfatı və bu sahədə çalışan insanların psixologiyası, kənd qarılarının, ağsaqqal kişilərin, cavan qızların və oğlanların dünyası öz əksini tapmışdır.

“Şanapipik” povestində müharibədən sonrakı ilk illər təsvir olunur. Müəllif kəndin bir-birindən fərqli, səciyyəsinə görə biri digərini təkrar etməyən, özünəməxsusluğu ilə seçilən müxtəlif tipli adamlarını təsvir edir. Bu adamlar eyni mühitdə yaşasalar da, hər biri fərdi cizgilərə malikdirlər.

Yetmişinci-səksəninci illərdə Mövlud Süleymanlıya həm şöhrət qazandıran, həm də tənqidə məruz qalan bir əsəri burada yad etməmək insafsızlıq olardı. “Dəyirman” povesti deyə bilərik ki, həmin illərin mərhələvi əsərlərindən biri idi. O mənada ki, bu tipli əsər nəsrdə az-az yaranırdı və deyim ki, İsa Hüseynovun “Yanar ürək”, “Doğma və yad adamlar”, Sabir Əhmədlinin “Yamacda nişanə”, “Dünyanın arşını”, “Qanköçürmə stansiyası” kimi sərt həyat həqiqətlərini qələmə alan əsərlərlə bir sıraya gəldi.

Yetmiş yaşı ərəfəsində Mövlud Süleymanlı “Yer üzünə məktub” adlı etnoqrafik düşüncələr romanı ilə oxucuların görüşünə gəlib. Altmışıncı illərdən- “Bulaq” verilişindən başlamış qələmə aldığı əksər yazılar, xalq ruhunu və mənəviyyatını ifadə edən fikirlər, duyğular, düşüncələr hamısı bu romanda toplanıb. Və bu əsər də göstərir ki, Mövlud Süleymanlı bütün yaradıcılığı boyu xalq adlı maddi, mənəvi varlığa sadiq qalmışdır....

Azərbaycan ədəbiyyatının qüdrətli yaradacılarından biri Mövlud Süleymanlının 80 illik yubileyi münasibətilə keçirilən təbdirlərdən biri də *“Həyat gerçəkliyini əsərlərə köçürən ədib”* adlı **oxucularla söhbətdir.**
Kitabxanaçı tədbir iştirakçılarını salamladıqdan sonra ədib haqqında məlumat verir. Tədbirə dəvət almış xüsusi qonaqlar Mövlud Süleymanlının ömür yolu və onun məsuldar

yaradıcılığından söhbət açır. Bundan sonra F.Köçərli adına kitabxananın metodisti tədbirdə iştirak edən məktəblilərə Mövlud Süleymanlının əsərlərindən "And olsun əsrə" adlı yeni kitabı haqqında oxucularla söhbətə başlayır:

***Kitabxanaçı:*** Azərbaycan ədəbiyyatında, ümumiyyətlə, xalqımızın mənəvi aləmində böyük yeri, mövqeyi və məqamı olan unikal düşüncə sahibi, qələm-söz ustası, fenomenal yaddaş daşıyıcısı Mövlud Süleymanlının kitabları, kitab ifadəsinin anlamının sərhədlərini aşır. M.Süleymanlının "And olsun əsrə" adlı yeni kitabı bütün türk dünyasının mahiyyətini, yaşamını, əxlaqını, mədəniyyətini, təbiətdən heç vəchlə seçilməyən, qopa bilməyən, ayrılmayan həyat tərzinin ifadəsidir və müəyyən mənalarda hətta yer üzünə düzən verə bilmiş, öz harmoniyasını yaratmış bir xalqın tarixidir.

Mövlud Süleymanlının düşüncəsiylə deyək: "And olsun əsrə ki, tarix bu deyilmiş." Yazıçının "Yer üzünə məktub" əsərində gerçək tarix nədir sualına cavab verilir:

"... Əsil tarix içlərə - yaddaşlara yazılır." Mənim xalqımın tarixini, onun izlərinin möhtəşəmliyini öz yaddaşımızda axtarmasaq o, "yenə də çaşdırılmış ov kimi özünə yer tapmayacaq".

"And olsun əsrə" kitabı mənim xalqımın tarixdən öncə yaratdıqları, islama qədərki qüdrətli mədəniyyəti, iç dünyası, gündəlik yaşamı, zaman keçdikcə özləriylə ən müxtəlif ideologiyalar, siyasət, formasiyalar gətirən cahangirlər tərəfindən "istila olunsa" da, donu – qiyafəsi, ifadəsini dəyişdirilməyə ciddi səylər göstərilsə də ünlü yazıçı içindən çıxdığı Xalqın yaddaşına söykənərək qürurla, fəxrlə, yanğı ilə bəyan edir ki, heç nə xalqımızın düşüncəsini, iç dünyasını istila edə bilmədi, onun mənəvi, ərazisinə müdaxilə etmək

qüdrətində ola bilmədi. Mənim xalqımın yaratdıqları onun iç dünyasına yazdıqlarıdır dedi. Əl yetməyən məqamdır, əl yetməyən tarixdir. Mövlüd Süleymanlı "And olsun, əsrə…"

Kainata, yer üzünə tanıtmaq istəyir. Duyğu, düşüncələrini sərgiləmək üçün "Məktub" formasını seçməsində də bir hikmət gördüm: M.Süleymanlı yazdıqlarını sevə-sevə, boyunu oxşaya-oxşaya, qürur duyaraqdan dünyaya, yer üzünə ünvanlayır. Əziz oxucu, kitabın hər səhifəsi, hər hadisəsi, hər verilən məlumat səni düşündürəcək, təcübləndirəcək, tarixi sənə tanıdacaq, tarixlə qohumluğunu göstərəcək, tarixdən çıxdığını, tarix yaratdığını, ədəbiyyatından, mədəniyyətindən, mahnı, şeir, əmək alətləri, gün – dirlikdən söhbət açdığı məqamlarda, mənalarda sənə rast gətirəcək. Yazılmayan, öyrədilməyən, lakin bizimlə addımlayan, həyatımıza ahəng gətirən, içimizdəki tarixlə üz-üzə qalacaqsan. Ədəbiyyat, mədəniyyət, bir sözlə mənəvi dünyamızda əlahiddə məqamı olan "Koç", "Şeytan", "Şanapipik", "Qar", "Səs", "Dəyirman", "Quru kəllə", "Ceviz qurdu", "Fatehlərin divanı", "Erməni adındakı hərflər", "Ömürdən qıraqda", "İt dərsi", "Ağacan" və s. kimi milli sərvətə çevrilmiş, sovet dönəmində belə ədəbi hadisə sayılan irsin müəllifi M.Süleymanlı, yeni kitabı ilə özünün oxunmamış səhifəsini, yeni duyğu və düşüncələrini, içinin yeni mənzərəsini çox orijinal bir biçimdə təqdim edir.

İstedadlı ədib Mövlüd Süleymanlını tanıtmaq və eyni zamanda yad etmək məqsədilə keçirilə biləcək tədbirlərdən biri **ədəbi-bədii** gecədir. "Sevilən əsərlər qəhrəmanı Mövlüd Süleymanlı" adlı ədəbi-bədii gecə keçirilən zalda Mövlüd Süleymanlının rəsmləri, onun öz fikirləri və digər görkəmli şəxsiyyətlərin Süleymanlı haqqında söylədikləri yer alır.

Gecədə şair və yazıçılar, sənət-söz adamları, alimlər və ədəbiyyatşünaslar iştirak edirlər.

**I aparıcı:** Salam dəyərli qonaqlar. Biz buraya görkəmli yazar, çağdaş Azərbaycan nəsrinin ən görkəmli nümayəndələrindən biri, belə demək olarsa, illərini ədəbiyyata qurban verən Mövlüd Süleymanlının 80 illik yubileyi münasibətilə yığışmışıq. Mövlüd Süleymanlı bilindiyi kimi yaradıcılığa şeirlə başlamış, bədii-publisistik yazıları, xüsusən də radiomuzun qızıl fonduna daxil olmuş "Bulaq" verlişindəki orijinal fəaliyyəti ilə oxucuların və dinləyicilərin rəğbətini qazanmışdır.

**II aparıcı:** Mövlüd Süleymanlının ilk hekayələrində özünü göstərən mövzu genişliyi, dünyanı, ətrafı duyma bacarığı, yeni deyim tərzi Mövlüd Süleymanlının bədii söz sərvətində özünütəsdiqi idi. Mövlüd Süleymanlı bir yazıçı kini, insanın, cəmiyyətin taleyinə səlahiyyətli bir cavabdeh kimi sənəti qədimdən narahat edən işıq və zülmət, insanın ədalətə, gözəlliyə, torpağa, Vətənə münasibəti problərini özünün duyduğu kimi, gördüyü kimi nəsrə gətirdi.

**I aparıcı:** Onun əsərlərində yaşadığı dövrün ən ağrılı problemlərinə cəsarətli yazıçı müdaxiləsi, zamanın təxirsiz cavab vermək cəhdləri var. Bu gün də Mövlüd Süleymanlının əsərləri eyni narahatlıqla milli varlığa, milli cəmiyyətin sabahına biganə qalmamağa çağırır, azad və müstəqil ölkəmizin gələcəyi uğrunda səfərbərliyə səsləyir. Yazıçının romanları ilə tanış olan müasir oxucunun min illərin qan yaddaşından və sənətkar qəlbindən gələn bu çağırışa qoşulacağına əminik.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı

**Kitabları**

And olsun əsrə... . - Bakı : Elm və Təhsil, 2012. - 528 s.

Ayın aydınlığında : povestlər və hekayələr. - Bakı : Gənclik, 1979. - 128 s.

Günün duası : roman. - Bakı : Gənclik, 1993. - 232 s.

Köç : povestlər və roman. - Bakı : Yazıçı, 1984. - 278, [1] s.

Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2006. - 480 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Şəhər toylarının səsi : roman, povest və hekayələr. - Bakı : Gənclik, 1985. - 244, s.

Səs : povestlər və roman. - Bakı : Yazıçı, 1988. - 374, [2] s.

Üç roman. - Bakı : Azərbaycan, 2004. - 584 s.

Üç roman: Köç, Ceviz qurdu, Səs. - Bakı : Azərbaycan, 2004. - 584 s.

**Haqqında kitablarda**

Zəlimxan Yaqub: Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - 388 s.

**Əsərləri dövrü mətbuatda**

Aykəm babanın arxacı : hekayə // Göyərçin. - 2021. - № 2. - S. 6-7.

Dərsdən öncə yazılanlar... // Ədəbiyyat qəzeti. - 2020. - 22 fevral. - № 7. - S. 6-7.

Dəyirman : roman // Qobustan. - 2021. - № 3. - S. 17-32.

Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 4.

Ev ruhları // Ulduz. - 2007. - № 6. - S.12-18.

Ömürdən qıraqda : povest // Azərbaycan : jurnal. - 2021. - № 9. - S. 71-92.

Ovçu Oralın quş dilini bilməsi : hekayə // Göyərçin. - 2020. - № 11. - S. 4-5.

Özü öz yanında olan adam // Ədəbiyyat qəzeti. - 2022. - 15 yanvar. - **№ 1**. - S. 6.

Qırx ilin yeddi görüşü : Heydər Əliyev - 90 // Azərbaycan. - 2013. - № 5. - S. 3-13.

Su, Torpaq, Od, Hava... // Qobustan. - 2019. - № 1. - S. 8-11.

Tanrı oturacaqları : romandan parça // Ədəbiyyat qəzeti. - 2017. - 21 oktyabr. - № 37. - S. 2-3. ; 28 oktyabr. - № 38. - S.12-13.

Teymurlar : povest // Ulduz. - 2012. - № 12. - S. 76-96.

Üzü sənə : şeir // Ədəbiyyat qəzeti. - 2015. - 13 iyun. - № 38/40. - S. 3.

Yağış uşaqlar ; Oğru öskürəyi ; Ceviz qurdunun balası : nağıllar // Ədəbiyyat qəzeti. - 2014. - 2 may. - № 16. - S. 15.

Yer üzünə məktub... : yaddaş // Azərbaycan. - 2013. - № 1. - S. 97-141. ; № 2. - S.46-86. ; № 3. - S. 137-159.

Yol üstü : hekayə // Göyərçin. - 2020. - № 12. - S. 4-5.

**Haqqında dövrü mətbuatda**

**Aran S**. Mövlud Süleymanlı: Mən yazmıram deyəndə də yazıram : Mövlüd Süleymanlı - 75 : müsahibə // Ədəbiyyat qəzeti. - 2018. - 3 mart. - № 8. - S. 8-10.

**Mehrəliyev E**. Bir romanın ideya-bədii konsepsiyası : Xalq yazıçısı M.Süleymanlının "Erməni adındakı hərflər..." əsərinə rəy // Ədəbiyyat qəzeti. - 2008. - 25 iyul. - S. 5-6.

Mövlud **Süleymanlı -** 70 // Ədəbiyyat qəzeti. - 2013. - 12 aprel. - № 13. - S. 5.

**Qasımzadə İ.** Xalq ruhunun yaddaşı : Mövlud Süleymanlı - 70 // Azərbaycan. - 2013. - № 4. - C. 10-11.

**Babasoy Ü**. Hərflərdə gizlənən yalan və həqiqət paradiqması : Mövlud Süleymanlının "Erməni adındakı hərflər" romanı haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 23 may. - № 32/33. - S. 4.

**Hüseynoğlu S**. Nəsrin şeriyyəti : Mövlud Süleymanlı - 70 // Ədəbiyyat qəzeti. - 2013. - 12 aprel. - № 13. - S. 5.

**Pərvin.** Dəyirman dərdi // Qobustan. - 2021. - № 3. - S. 14-16.

# Sevilən romanlar müəllifi Mövlud Süleymanlı

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**